UOT 159.9

***Zeynəb Camal qızı Məmmədova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# İNKLÜZİV TƏHSİL ÜMUMİ TƏHSİLİN İNKİŞAF MƏRHƏLƏSİ KİMİ

***Зейнаб Джамал гызы Мамедова***
*диссертант по программе доктора философии, преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ КАК ЭТАП РАЗВИТИЯ ОБЩЕГО ОБРАЗОВАНИЯ

***Zeinab Jamal Mammadova***
*doctorial student in the program of doctor of philosophy,*
*lecturer at Azerbaijan State Pedagogical University*

# INCLUSIVE EDUCATION AS A STAGE IN THE DEVELOPMENT OF GENERAL EDUCATION

**Xülasə.** Məqalədə inklüziv təhsilin inteqrasiya olunmuş təhsil sisteminin məntiqi davamı olaraq, tədris prosesinin təşkilinə və hər bir uşaqla qarşılıqlı əlaqələrə yeni, daha mükəmməl və çevik yanaşmaların təklif edildiyi qeyd edilir. İnklüziv təhsilin əsasında bütün insanlara bərabər münasibət ideyası dayanır, uşaqların hər hansı bir ayrı-seçkiliyi istisna olunur, xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün şərait yaradılır.
***Açar sözlər:*** *inklüziv təhsil, tibbi yanaşma, sosial yanaşma, kompetensiya, inteqrasiya, strategiya.*

**Резюме.** В статье отмечается, что инклюзивное образование как логическое продолжение интегрированной системы образования предлагает новые, более совершенные и гибкие подходы к организации учебного процесса и взаимодействию с каждым ребенком. В основе инклюзивного образования лежит идея равного отношения ко всем людям, исключается любая дискриминация детей, создаются условия для детей с особыми образовательными потребностями.
***Ключевые слова:*** *инклюзивное образование, медицинский подход, социальный подход, компетенция, интеграция, стратегия*

**Summary.** The article notes that inclusive education as a logical continuation of the integrated education system offers new, more advanced and flexible approaches to the organization of the educational process and interaction with each child. Inclusive education is based on the idea of equal treatment of all people, eliminating any discrimination against children, creating conditions for children with special educational needs.
***Keywords:*** *inclusive education, medical approach, social approach, competence, integration, strategy*

Ölkədə baş verən ictimai siyasi dəyişikliklərin təhsildə də özünü göstərməsi gözlənilən haldır. Təhsildə baş verən dəyişikliklər isə cəmiyyətin bütün üzvlərinin həyat və fəaliyyəti ilə sıx bağlıdır. Çünki, təhsil sisteminin özü də cəmiyyətin inkişafına şərait yaradan sosial sistemdir. Məlumdur ki, 1999-cu il Azərbaycan tarixində təhsil islahatlarının həyata keçirilməsinin başlanğıc mərhələsi kimi qiymətləndirilir. Təhsil islahatının həyata keçirilməsinin sistemli şəkildə müəyyənləşdirilmiş məqsədləri var. Bu məqsədlərdən biri də təhsil prosesində yeni yanaşmanı tələb edir. Bu yanaşma şagirdlərin hər birinin potensial imkanlarının nəzərə alınmasını, onların gələcək həyat və fəaliyyətlərinin təmin olunmasına xidmət edəcək kompetensiyaların verilməsini əsas götürür. Bu da təhsilin keyfiyyətinin yeni bir mərhələyə keçməsi ilə nəticələnir. Təhsilə yeni yanaşma bütün uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların

da inkişafının təmin edilməsini nəzərdə tutur. Hər bir insanın, istər tipik, istərsə də sağlamlıq imkanları məhdud uşaqların şəxsiyyət kimi qəbul edilməsində yeni pedaqoji təfəkkürün və yeni yanaşmanın zəruriliyi tələb olunur.

Demokratik cəmiyyətin inkişafının əsas komponenti hesab edilən təhsil sistemi eyni zamanda bəşəri dəyərlərin də qorunub saxlanılaraq nəsildən-nəslə ötürülməsində rolu olan faktordur. Bunun üçün humanist və demokratik prinsiplərə söykənən, dilindən, dinindən, milli, cinsi, irqi, əqli və fiziki fərqliliklərindən, sosial vəziyyətindən asılı olmayaraq hər kəsin bərabərhüquqlu olması nəzərə alınaraq təhsil təminatı ödənilir. Bəllidir ki, əlilliyi olan uşaqların da tipik həmyaşıdları ilə birlikdə təhsil alması, onların cəmiyyətin ictimai- siyasi həyatında iştirakı və təhsil hüquqlarının təmin edilməsi üçün imkanlar yaradılır. Araşdırmaların nəticəsindən aydın olur ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların "tipik" həmyaşıdları ilə birlikdə, eyni sinifdə dərs prosesində iştirakı bu prosesin bütün iştirakçılarına təhsil və sosial baxımdan fayda verir. Bu da uşaq hüquqlarının qorunmasının təmin edilməsi məqsədilə verilmiş qərarların həyata keçirilməsinin təmin olunmasına xidmət edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlam həmyaşıdları ilə birgə təhsil alması, onların öz potensial imkanlarına inam hissinin formalaşması üçün də imkanlar yaradır. İnklüziv təhsil sistemi uşaqlarda özünə inamı artırır və digər normal həmyaşıdları ilə bərabər hüquqlu olmasını təmin edir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili-inklüziv təhsil ümumi təhsilin inkişaf mərhələsi olmaqla bütün uşaqların təhsil ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur.

İnklüziv təhsillə bağlı bir sıra diqqəti çəkən məqamları qeyd etmək olar. Pedaqoji nəzəriyyələrdə xüsusi təhsili inklüziv təhsildən onun tibbi yanaşmaya əsaslanması fərqləndirir. Bu fərq inklüziv təhsilin xüsusi təhsilin daha təkmil və formalaşmış növü hesab edilməsi, xüsusi təhsil ilə inklüziv təhsil arasında sıx əlaqənin olması, xüsusi təhsilin təcrübəsindən qaynaqlanaraq inklüziv təhsilin təşkil edilməsindən ibarətdir.

BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları" haqqında Konvensiyasında inklüziv təhsilin dəstəklənməsi məsələsi nəzərdə tutulmuşdur. Sənəddə əlil uşaqların cəmiyyətə tam və səmərəli cəlb olunması və daxil olması, əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların cəmiyyətin bir hissəsi kimi qəbul olunması, onlara bərabər imkanların yaradılması, əlil uşaqların inkişaf edən fərdi qabiliyyətlərinin aşkar edilməsi, hüquqlarına hörmət etmək kimi məsələlər öz əksini tapmışdır. Lakin bu məsələlərin nəzərə alınması ilə yanaşı çoxsaylı çətinliklərin olması da danılmazdır. Əlilliyi olan uşaqlar üçün ilk növbədə maneə insanların əlilliyə qarşı mənfi münasibətidir. Bu isə əlilliyi olan uşaqların davamlı olaraq kənarlaşdırılması və ayrı-seçkiliyə məruz qalması ilə nəticələnir. Əlilliyi olan şəxslər cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan fiziki, psixi, əqli pozuntuları olan insanlar nəzərdə tutulur. Şəxsin əlil kimi qiymətləndirilməsi onun məhdudiyyəti ilə ətraf mühitdəki maneələr arasındakı əlaqədir. Əlilliyə tibbi yanaşmanın mövcudluğu fərdin qüsuruna söykənir və onu problemi olan insan kimi qəbul edir. Bu yanaşma şəxsin cəmiyyətdə fəal olmamasına şərait yaradan amilləri və ya maneələri nəzərə almır. İnklüziv təhsil kontekstində tibbi yanaşma əlilliyi olan uşaqların məktəbdə öyrənmək və səmərəli şəkildə iştirak etmək imkanlarını məhdudlaşdırır. Əlilliyə tibbi yanaşma insan hüquqlarına əsaslanan yanaşmanın dinamikliyini və kompleks xarakterini əks etdirmir, fərdə diaqnozu əsasında baxmağımıza gətirib çıxarır. Nəticədə uşaq əlilliyə görə damğalanır, maneələri aradan qaldırmaq və təhsil sistemində islahatlar aparmaq əvəzinə uşaq problem olaraq qəbul olunur.

Tibbi yanaşmanın özü bilavasitə uşaqların təhsilində müəyyən məhrumiyyətlərlə nəticələnir. Bu model səhhətində ciddi problemi olan (əlil) uşaqları özündə birləşdirir və problemlərin üzvi patologiyaya (sensor, motor və ya nevroloji qüsurlar) aid olmasını nəzərdə tutur. Xüsusi xidmətə və xüsusi qayğıya ehtiyaclarının olması da qeyd edilən problemlərlə bağlıdır. Bu da onların xüsusi təhsil müəssisələrində təhsil almaları zərurətini yaradır. Əlilliyin tibbi modeli hər kəsin fərdi probleminə və onun diaqnozuna daha çox önəm verərək təlim prosesini müəyyən məhdudiyyətlər şəraitində qurmağı tələb edir. Bu da öz növbəsində uşağın müxtəlif xarakterli maneələrlə rastlaşmasına, onun hansısa bir qüsuru olması

adı ilə damğalanmasına, onun cəmiyyət tərəfindən qəbul edilməməsinə, təlim prosesi üçün onun problem olması fikrinə gətirib çıxarır. Belə olan halda tibbi yanaşma zamanı təhsilin əsas prinsipləri pozulmuş olur. Tibbi modeldə uşaq problem kimi qəbul edildiyi üçün onların təhsilinə yanaşma da özünü müxtəlif aspektlərdə göstərir:

*ilk növbədə uşağın əlil olması qabarıq şəkildə ortaya qoyulur ki, bu da onlardan gözləntilərin aşağı düşməsi ilə nəticələnir;

*uşaq dərsi mənimsəyə bilmədiyi üçün dərsdə fəallıq göstərə bilmir və bu zaman onlar özlərinə zəruri olan bacarıqları mənimsəyə bilmirlər;

*onun təhsilinin səmərəli təşkili üçün müvafiq resursların zəruriliyi ortaya çıxır və həmin resurslarla təmin edilmədikdə də müəyyən zəruri kompetensiyalara yiyələnə bilmirlər;

*uşaqlarla işləyən müəllimdə uşağın öyrənmə çətinliklərini aradan qaldırmağın mümkün olmaması fikrinin formalaşması onlarda inam hissini azaldır;

*uşağın səmərəli təhsilinin təşkili üçün ayrı-ayrı mütəxəssislərə ehtiyac duyulur;

*uşaq tətbiq edilən proqram materialını mənimsəyə bilmir və öz tipik həmyaşıdlarından geri qalır;

*belə yanaşma onların cəmiyyətə inteqrasiyası və şəxsi sosiallaşması üçün də müəyyən maneələr yaradır.

Lakin sosial modeldə təkcə əlilliyi olan uşaqlar deyil, digər uşaqlar da çətinliklərlə rastlaşa bilərlər. Bu çətinliklərin aradan qaldırılması üçün uşaqlara yanaşma da tamamilə fərqli xarakterə malikdir. Bu modeldə əlilliyi olan uşaq tibbi modeldə olduğu kimi problem kimi qəbul edilmir əksinə, uşağın təhsil ehtiyaclarını ödəyəcək təlim mühitinin yaradılması nəzərdə tutulur. Sosial modelə görə əlliliyi olan şəxslərə fərqli yanaşma tələb olunduğu kimi onları əhatə edən cəmiyyətin təfəkküründə də yaxşı mənada müsbətə doğru müəyyən dərəcədə dəyişikliklər etmək zəruridir. Nəzərdə tutulan dəyişiklik ondan ibarətdir ki, bütün uşaqlar üçün səmərəli təlim şəraitinin yaradılması ilə yanaşı inklüziv siniflərdə dərs deyən müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması nəzərdə tutulur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərinə uğurlu inteqrasiyası məktəb mühitində və bütövlükdə təhsil sistemində mühüm dəyişikliklər tələb edir. Həmin dəyişikliklər hətta infrastruktura, tədris proqramları və materiallarının işlənib hazırlanmasına, təlim strategiyalarının diferensiallaşdırılmasına, qiymətləndirmə prosesində müxtəlif yanaşmalardan istifadə edilməsinə öz təsirini göstərir. Diqqəti çəkən məqamlardan biri kimi onu da qeyd etmək olar ki, ilkin dövrlərdə mahiyyət etibarilə inklüziv təhsil XQEU-ın "tipik" həmyaşıdları ilə birlikdə ümumtəhsil müəssisələrində birgə təhsil alması kimi başa düşülürdü. Lakin sonrakı inkişaf mərhələlərində bu yanaşmaya münasibət dəyişməyə başladı. Belə ki, mahiyyət etibarı ilə inklüziv təhsil XQEU-ın yalnız təhsil ehtiyaclarını təmin etməklə kifayətlənmir, eyni zamanda fiziki cəhətdən qüsurlu şəxslərin cəmiyyətə inteqrasiyasını, sosial adaptasiyasını, müstəqil şəkildə qərarlar verə bilməsini, hüquqlarını anlamaq imkanını da yaradır. Bununla da onların birgə təhsilinin təşkili öz mahiyyəti etibarilə qiymətləndirilə bilir. Birgə təhsilin digər, yəni ilkin forması inteqrasiyalı təhsil olsa da burada sağlamlıq imkanları məhdud uşaqlar öz tipik həmyaşıdları ilə eyni sinifdə təhsil almaq imkanına malik deyillər. Onlar eyni məktəbdə qüsurlarının xarakterinə uyğun olaraq ayrı-ayrı siniflərdə təhsil alırlar. İnklüziv təhsil isə ümumi təhsilin inkişaf mərhələsidir. Təhsilin bütün uşaqların müxtəlif ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur və XQEU-ın da təhsil almasını təmin edir. Beləliklə inklüziv təhsil ümumtəhsil sisteminin inkişaf etmiş bir forması kimi qiymətləndirilir.

İnklüziv təhsil və onun metodoloji təhlilini apararkən ona bir çox yanaşmaların olduğu ilə rastlaşmaq mümkündür. Belə ki, müxtəlif ədəbiyyatlarda inklüziv təhsilin bir çox tərifləri və mənaları olduğu qeyd edilir. Onu təhsildə inqilab yox, təhsilin təkamülü kimi də qiymətləndirirlər.

"İnklüziv (fransızca inclusif sözü, latınca include sözünü özünə daxil edərək nəticəyə gəlmək mənasını verir) və ya daxil edilmiş termini ümumtəhsil məktəblərində xüsusi qayğıya ehtiyacı olan uşaqların tədris-təlim prosesinin təşkili ilə bağlı məsələlərin həllinə istiqamətlənmişdir. ("Korreksiya pedaqogikanın müasir məsələləri"- ARTPİ. Bakı 2002, səh 9). Məlumdur ki, yeni pedaqoji yanaşmada öyrənənlərə şəxsiy-

yət kimi yanaşılması təhsil sisteminin başlıca məqsədlərindən hesab edilir. Təkcə ənənəvi pedaqogikanın didaktik tələbləri deyil, uşaqyönümlü pedaqoji yanaşma da bu prosesdə əhəmiyyətli rola malikdir. Bu zaman şagirdlərə faydalı təlim imkanlarının, birgə öyrənmə və eyni zamanda fərqli yollarla öyrənmə zamanı çoxsaylı səmərəli təlim metodlarından istifadənin yaradılması uşaqlarda motivasiyaedici xarakter daşıyır. O da bəllidir ki, inklüziv təhsil anlayışına yanaşma əvvəllər təkcə fiziki və psixi qüsurlu uşaqların ümumtəhsil məktəblərində təhsil alması kimi başa düşülürdü. Lakin inklüzivlik müxtəlif risk qrupuna aid, məsələn, aztəminatlı ailələrin uşaqları, müxtəlif radikal və mühafizəkar dini adət ənənələri olan ailələrin də uşaqlarına aid edilə bilir. İnklüziv təhsil qeyd edilən bu risk qrupuna aid olan şəxslərin də təhsilinin təmin edilməsində əhəmiyyətli rola malik olmaqla psixofiziki cəhətdən qüsurları olan uşaqların təkcə təhsil tələbatlarını ödəməklə kifayətlənmir, eyni zamanda onların tipik həmyaşıdları ilə bərabər hüquqlara malik olmalarını dəstəkləyərək cəmiyyətə inteqrasiya imkanlarına şərait yaradır. İnteqrativ təhsildə şagirdlər məktəbin tələblərinə uyğunlaşdırıldıqları halda, inklüziv təhsildə isə məktəb şagirdlərin, onların tələbat və təhsil ehtiyaclarının ödənməsi istiqamətində öz işini təşkil edir.

İnkluziv təhsil inteqrasiya olunmuş təhsil sisteminin məntiqi davamı olaraq, tədris prosesinin təşkilinə və hər bir uşaqla qarşılıqlı əlaqələrə yeni, daha mükəmməl və çevik yanaşmalar təklif edir. İnkluziv təhsilin əsasında bütün insanlara bərabər münasibət ideyası dayanır, uşaqların hər hansı bir ayrı-seçkiliyi istisna olunur, xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün şərait yaradılır. İnkluziv təhsil anlayışı, ənənəvi olaraq, əsasən, psixofiziki inkişaf xüsusiyyətləri olan şagirdlərin təhsil və sosial inteqrasiyası hüququnun həyata keçirilməsi ilə bağlı anlayışlarla məhdudlaşırdı. Lakin konsepsiya istisnasız olaraq bütün uşaqların mədəni, iqtisadi və sosial statusundan, həmçinin onların qabiliyyət və imkanlarındakı fərqdən asılı olmayaraq, təhsil sahəsində bərabər hüquqlara, şəraitə və imkanlara malik olması ideyasına doğru inkişaf etmişdir.

2005-ci ildə Azərbaycan Respublikasının xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009) imzalamışdır. Proqram çərçivəsində 2005-ci ildən etibarən Azərbaycanda Təhsil Nazirliyi və UNİCEF tərəfindən birgə inklüziv təhsil layihəsi həyata keçirilməyə başlamışdır.

2009-cu ildə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu imzalandı və həmin qanunda dövlətin hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasının təmin edilməsi, təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol verilməməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Strategiyanın hədəflərində – xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması, onların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması, təhsili və sosial adaptasiyası üçün imkanların təmin edilməsi məqsədilə optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi, məktəbəqədər və ümumi təhsil müəssisələri təhsil verənlərinin inklüziv təhsili üzrə məqsədli əlavə təhsilinin təmin edilməsi (Kurikulum, 2013, № 4, s. 110-111) məsələləri öz əksini tapır.

Xüsusi qayğıya ehtiyacı olan şəxslərin cəmiyyətdə fəal iştirakı, hər bir fərdin hüquq və azadlıqlarına hörmət, sosial təminatı, onun təhlükəsizliyi cəmiyyətin qarşısında duran ən vacib məsələlərdəndir. Bu məsələnin inklüziv təhsil çərçivəsində həlli üçün yeni yanaşma və strategiyaların araşdırılması, tətbiqi zərurəti aktuallıq kəsb edir. Hazırda təhsilə inklüziv yanaşma təhsilin əsas məqsədlərindən biri kimi qəbul edilir və xüsusi qayğıya ehtiyacı olan uşaqların inkişaf problemləri, təhsili, tərbiyəsi, abilitasiyası, reabilitasiyası üçün zəruri olan sosial, psixoloji və pedaqoji şəraitin yaradılması kimi qəbul edilir. İnklüziv təhsilin məqsədi risk qrupuna aid olan şəxslərin mövcud fiziki, intellektual, sosial, emosional, dil və digər xüsusiyyətlərinə baxmayaraq cəmiyyətin ayrılmaz bir üzvü olduğunu nəzərə alaraq hər bir uşağın təhsil və tərbiyə prosesində tipik həmyaşıdları ilə birlikdə təhsilini təmin etməkdir. Bu da onların cəmiyyətin ayrılmaz bir üzvü olması anlamına gəlir. İnklüziv təhsilin əsas məqsədlərindən biri də peşə hazırlığı üçün sərhəd tanımayan mühitin yaradılması-

dır. Bununla əlaqədar olaraq tətbiq ediləcək resursları müəyyən etmək, təkcə təhsil alanlar deyil, həm də müəllimlər üçün xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil prosesinə fəal qoşulmasına imkanlar yarada bilmələri üçün yardımçı xarakteri daşıyır.

**Problemin aktuallığı.** Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili-inklüziv təhsil ümumi təhsilin inkişaf mərhələsi olmaqla bütün uşaqların təhsil ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasının araşdırılması aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Məqalədə inklüziv təhsilin inteqrasiya olunmuş təhsil sisteminin məntiqi davamı olaraq, tədris prosesinin təşkilinə və hər bir uşaqla qarşılıqlı əlaqələrə yeni, daha mükəmməl və çevik yanaşmaların zəruri olması qeyd edilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qeyd olunan məsələləri nəzərə almaqla inklüziv təhsilin təşkili zamanı şagirdlərin lazımi kompetensiyalara yiyələnməsi üçün əlverişli təlim mühiti və resurslardan istifadə əhəmiyyətli rola malikdir.

**Ədəbiyyat:**

1. “Korreksion pedaqogikanın müasir məsələləri” ARTPİ, -Bakı. -2012.
2. İnklüziv təhsil: Məktəbəqədər təhsil pilləsi üçün metodik vəsait. -Bakı, -2013.
3. Özel egetime Gereksinimi olan ögrenciler ve “Özel egetim”. Editör: İbrahim H.Diken. 2019. Pegmen Akademi.

E-**mail:** zeynab-isa@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.* **T. H. Ağayeva,**
*ped.ü.fəls.dok.,dos.* **S. N. İskəndərova**

**Redaksiyaya daxil olub:** 09.04. 2021.